*Prezident İlham Əliyev:*

# Bizim iqtisadi uğurlarımız və iqtisadi müstəqilliyimiz dövlət müstəqilliyimizin əsasıdır

## HƏR ZAMAN SAHİBKARLARIN YANINDA OLAN VƏ ONLARA ÖZ SİYASİ DƏSTƏYİNİ NÜMAYİŞ ETDİRƏN DÖVLƏT BAŞÇISININ İMZALADIĞI SON SƏNƏDLƏR SAHİBKARLIĞIN İNKİŞAFINDA YENİ MƏRHƏLƏNİN BAŞLANMASINI SÜBUT EDİR

Azərbaycanda sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Prezident İlham Əliyev respublikamızda özəl sektorun, kiçik və orta sahibkarlığın inkişafına həmişə xüsusi diqqət və qayğı ilə yanaşmışdır. Bu qayğının nəticəsidir ki, son illər Azərbaycanın dinamik inkişafında iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi olan özəl sektorun, kiçik və orta sahibkarlığın rolu artmaqda davam edir. Bu, həm də onu göstərir ki, Azərbaycan dövlətinin gücü artmış, özəl sektor, sahibkarlıq ölkəmizdə gedən uğurlu proseslərdən bəhrələnmişdir. Regional inkişaf proqramları ilə yanaşı, ölkə Prezidenti İlham Əliyev tərəfindən imzalanan Fərman və sərəncamların, qanunların, Dövlət Proqramlarının icrası sahibkarlığın inkişafına təkan vermiş, qeyri-neft sektorunun inkişafını stimullaşdırmışdır.

Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vezifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyev ölkəmizdə özəl sektorun, kiçik və orta sahibkarlığın inkişafına bundan sonra da xüsusi diqqət göstəriləcəyini bir daha bəyan etmişdir. Son illər Azərbaycanın sürətli iqtisadi inkişafında kənd təsərrüfatının, onun əsas hərəkətverici qüvvəsi olan özəl sektorun, kiçik və orta sahibkarlığın rolu böyükdür. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, son illərdə investisiyaların böyük əksəriyyəti özəl sektorlar tərəfindən qoyulan daxili investisiyalardır. Bu, həm də onu göstərir ki, Azərbaycan dövlətinin gücü artmış, özəl sektor ölkəmizdə gedən uğurlu proseslərdən bəhrələnmişdir.

Artıq ölkədə bu istiqamətdə ciddi tədbirlərin görülməsinə başlanılıb. Hazırda qeyri-neft sektorunun, özəl bölmənin inkişafına əngəl törətməkdə birbaşa günahı olan, sahibkarları əsassız yerə incidən və faktiki olaraq sabotajla məşğul olan şəxslər öz layiqli cəzalarını alırlar. Bütün bunlar, həmçinin bu sahədə ciddi siyasi iradə nümayiş etdirən ölkə Prezidenti İlham Əliyevin son çıxışlarında vurğuladığı məqamlar bir daha göstərir ki, dövlət başçısı sahibkarların yanındadır.

Nazirlər Kabinetinin iclasında ölkədə biznes mühitini yaxşılaşdırmaq və biznesin inkişafına təkan vermək üçün çox ciddi addımlar atılacağını vurğulayan Prezident İlham Əliyev yoxlamalarla bağlı çoxsaylı şikayətlər gəldiyini, yoxlamaların sayının kifayət qədər çoxluğundan narahatlığını bildirərək demişdir: "Yoxlayan təşkilatlar sanki bir-biri ilə rəqabətə çıxıblar. Bu da dözülməzdir. Yoxlamaların böyük əksəriyyətinin arxasında yenə də maddi təmənna dayanır. Yoxlayan gəlir, nəyi yoxlayır, nəyi yoxlamır, ancaq nəticə etibarilə öz payını alır, çıxıb gedir. Budur reallıq. Bu, heç kim üçün sirr deyil. Buna da son qoyulmalıdır. Ona görə, qısa müddət ərzində mənə yoxlamalarla bağlı müfəssəl məlumat verilsin, hansı qurumlar kimi yoxlayırlar, ildə neçə dəfə yoxlayırlar, nə üçün yoxlayırlar? Burada bir sistem olmalıdır. Yoxlamaların tənzimlənmə mexanizmi işlənməlidir. Burada müəyyən şərtlər qoyulmalıdır - kim, nə vaxt, hansı müddət ərzində kimi yoxlaya bilər? Ümumiyyətlə, biz bu yoxlamaların sayını kəskin şəkildə aşağı salmalıyıq."

Bu istiqamətdə güclü siyasi iradə nümayiş etdirən dövlət başçısı Milli Məclisə qanunvericilik təşəbbüsü ilə müraciət etmişdir. Bu məsələ ölkə parlamentində müzakirə olunaraq qəbul edilmiş və nəhayət, ölkə Prezidenti 2015-ci il oktyabrın 20-də "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununu imzalamışdır. Bununla da, ölkə ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar iki il müddətinə dayandırılmışdır. Qanunun tətbiq dairəsinə görə, nəzərdə tutulmuş müddətdə yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparıla bilər. Heç şübhəsiz, bu qanun ölkə iqtisadiyyatının inkişafını sürətləndirmək, qlobal miqyasda daha böyük uğurlar əldə etmək üçün böyük və tarixi əhəmiyyət kəsb edir. Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması, həm də ölkə iqtisadiyyatının inkişafını bir qədər də sürətləndirəcək. Bununla yanaşı, yoxlamaların sayının azaldılması sahibkarlara öz fəaliyyətlərini tam planlaşdırmağa, ən əsası, özəl sektorun genişlənməsinə imkan yaradacaq.



Məlum olduğu kimi, Azərbaycanda bir sıra sahibkarlıq fəaliyyəti növləri xüsusi razılıq (lisenziya) vasitəsilə tənzimlənir. Sirr deyil ki, iş adamları bəzi fəaliyyət növlərinə lisenziya alarkən müəyyən çətinliklərlə üzləşirdilər ki, bu da əksər hallarda haqlı narazılığa səbəb olurdu.

Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq tələb olunan növlərinin sayının çoxluğunun, lisenziya verilməsinin mövcud prosedurlarının sahibkarlığın inkişafına əlavə çətinliklər yaratdığını nəzərə alan Prezident İlham Əliyev 2015-ci il oktyabrın 19-da "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq tələb olunan növlərinin sayının azaldılması, lisenziya verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında" Fərman imzalamışdır. Fərmanda qeyd olunduğu kimi, sahibkarlıq fəaliyyətinin inkişafı Azərbaycan Respublikasında dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Yeri gəlmişkən, "Gömrük sahəsində nəzarətin həyata keçirilməsi ilə əlaqədar bəzi yoxlamaların sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il oktyabrın 22-də imzaladığı Fərman da ölkə başçısının biznes mühitinin yaxşılaşdırılması və sahibkarlığın inkişafı sahəsində gündəlik qayğısının təzahürüdür. Xatırladaq ki, gömrük-buraxılış məntəqələrində gömrük-keçid qaydalarının sadələşdirilməsi məqsədi daşıyan Fərmana əsasən, fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan ümumi gömrük dəyəri 10 min ABŞ dolları ekvivalenti məbləğindən artıq olmayan mallar gömrük ödənişi edilmədən gömrük sərhədindən keçirilə bilər. Bununla bağlı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə, Nazirlər Kabinetinə, eləcə də Ədliyyə Nazirliyinə müvafiq tapşırıqlar verilmişdir.

Prezident cənab İlham Əliyev AMEA-nın 70 illik yubileyinə həsr olunan yığıncağındakı nitqində demişdir: "Davos Ümumdünya İqtisadi Forumu ölkə iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə Azərbaycanı 40-cı yerə layiq görüb. Bu, çox böyük nəticədir. İki yüz ölkənin arasında 40-cı yeri tutmaq, bir çox inkişaf etmiş ölkələri qabaqlamaq doğrudan da böyük nailiyyətdir və bunu biz neftin, qazın hesabına əldə etməmişik. Düşünülmüş siyasət, iqtisadi islahatlar bunu mümkün etmişdir. Biz çalışmalıyıq ki, bu yüksək templəri növbəti illərdə də saxlayaq və beləliklə, iqtisadi inkişafı uzunmüddətli, dayanıqlı edək. Çünki bizim iqtisadi uğurlarımız və iqtisadi müstəqilliyimiz dövlət müstəqilliyimizin əsasıdır."

Özəl bölmənin inkişafına yaradılmış bütün süni maneələrə, iş adamlarının fəaliyyətinə edilən əsassız müdaxilələrə baxmayaraq, ölkəmizdə geniş sahibkarlar ordusu formalaşmışdır. Ölkəmizin gələcək inkişafı, heç şübhəsiz, özəl bölmənin, sahibkarlığın inkişafından asılıdır.

Hər zaman sahibkarların yanında olan və onlara öz siyasi dəstəyini nümayiş etdirən dövlət başçısının imzaladığı son sənədlər isə sahibkarlığın inkişafında yeni mərhələnin başlanmasını sübut edir. Heç şübhəsiz, Azərbaycanda özəl bölmənin inkişafına dövlət dəstəyinin növbəti təzahürü olan son islahatlar, qəbul olunmuş mühüm qərarlar, imzalanmış sənədlər sahibkarlığın inkişafında kifayət qədər müsbət radikal dəyişikliklərə gətirib çıxaracaq. Bu, sahibkarlarla dövlət qurumları arasında birbaşa ünsiyyətin azaldılmasına və yersiz müdaxilələrin tamam aradan qaldırılmasına səbəb olacaq.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***